Dövlət qeydiyyatına alınmışdır:
Qeydiyyat şəhadətnaməsi
№ BP4069– 201- 20
Qida Təhlükəsizliyi Agentliyinin
Heyvan sağlamlığı şöbəsinin müdiri,
Baş dövlət baytarlıq müfəttişi
Q.Əbdüləliyev
"14" may 2020-ci il

"Amoksisillin –LA 15% VBF"
baytarlıq preparatının istifadəsi üzrə
**Təlimat**

1. **Preparatın ticarət adı:** "Amoksisillin- LA 15% VBF"- Амоксициллин - LA 15% ВБФ (Amoxycillinum -LA 15% VBF).
2. **Preparatın patentləşdirilməmiş beynəlxalq adı:** Amoksisillin trihidrat.
3. **Preparatın təsviri:** Xarici görünüşcə ağ çaların rəngindən sarı rəngli, steril, suspenziyadır.
4. **Dərman forması:** İnyeksiya üçün suspenziya.
5. **Preparatın tərkibi, fəal maddə 1 ml-də:** Amoksisillin trihidrat-0,15 q.
6. **Farmako-terapevtik qrupu:** Antibakterial baytarlıq preparatı.
7. **Qablaşdırma forması:** Preparat 50,0; 100,0 və 200,0 ml miqdarında şüşə flakonlarda qablaşdırılır.
8. **Saxlanılma şəraiti və yararlılıq müddəti:** Preparat istehsalçı qablaşmasında, quru, qaranlıq və uşaqlar üçün əlçatmaz yerdə, (+4°-dən +25°C-dək) temperatur şəraitində saxlanılmalıdır. Yararlılıq müddəti 2 (iki) il. İlk istifadədən sonra flakondakı preparat (+2$^0$C- dən +8$^0$C-dək saxladıqda) 28 sutka ərzində istifadəyə yararlıdır.
9. **Təsiredici maddənin əsas fiziki-kimyəvi xassələri və farmakoloji xüsusiyyətləri:** Amoksisillin trihidrat penisillin qrupuna aid yarımsintetik bakteriosid təsirə malik antibiotikdir. O qrammüsbət və qrammənfi bakteriyalara qarşı, o cümlədən *Actynomyces spp., Bacillus antracis, Clostridium spp., Corynebacterium spp., Erysipelothrix rhusiopathiae, Listeria monocytogenes, Staphylococcus spp., Streptococcus spp., Actinobacillus spp., Escherichia coli, Salmonella spp., Fusobacterium spp., Haemophilus spp., Moraxella spp., Pasteurella spp., Proteus mirabilis, Leptospira spp. və s.* qarşı təsirlidir.

   Preparat bakteriya hüceyrələrinin qılafında transpeptidaza və karboksipeptidaza fermentlərinin fəaliyyətini dayandırır, osmotik təziqi pozur və nəticədə bakteriya hüceyrəsinin inkişaf dövründə məhvinə səbəb olur.
10. **Tətbiqinə göstərişlər:** Preparat qaramal, qoyun, donuz, it və pişiklərdə Amoksisillinə həssas olan mikroorqanizmlər tərəfindən törədilən mədə-bağırsaq, yuxarı tənəffüs yollarının və sidik-tənəsül orqanların bakterial infeksiyalarının müalicəsi, həm də yumşaq toxumaların və dərinin, mastit, metrit, poliartrit, absses, donuzlarda metrit- mastit- aqalaktiya sindromu, ikincili infeksiyalara qarşı və cərrahi əməliyyatlardan sonra tətbiq edilir.
11. **İstifadə və dozalaşdırma qaydaları:** Preparat iri buynuzlu heyvanların, qoyunların, donuzların, it və pişiklərin hər 10 kq diri kütləsinə 1,0 ml Amoksisillin - LA 15% VBF suspenziya hesabı ilə dozalaşdırılır. Preparat əzələiçi

CamScanner ile tarandı